# HƏKƏT

Şakir Albalıyev,

*Filologiya elmləri doktoru, dosent*



Qazaxlı qızında ada bax:Həkət!
Sözdən söz çıxardar, hər sözü həkət!
Yerişi-duruşu, hər nazı həkət,
Durduğu yerdəcə quruca qandır!

Doymayıb elə bil sözdən-söhbətdən,
Qoydurub adına heykəl Həkətdən!
Qoyulub binası qıydan-qiybətdən,
Hər kəlmə başısı bir həyəcandır!

Sözlə yoğrulubdur dilin binası!
Dilin beşiyidir Ana dünyası!
Həkət də bu elin xanım anası!
Dilimiz anamız Azərbaycandır!

Həkət-Vətən qızı! Həkət anadır!
Ana söz öyrədib dili anladır!
Həkət sözümüzə işıq-aynadır!
Sözü anlamaq da bir imtahandır!